# LERİK

№ 15-16 (6059-6060) 30 sentyabr 2022-ci il * İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik qəzet * Qiyməti 40 qəpik


## ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!



Sadıxov Şəmistan Əbdülağa oğlu



Məlikov Vüsal Bəxtiyar oğlu



Zülfiyev Coşqun Ədail oğlu

***12 sentyabr 2022-ci ildən 13 sentyabra keçən gecə qondarma Ermənistan silahlı qüvvələri Daşkəsən, Kəlbəcər və Laçın istiqamətində Azərbaycan Ordusunun mövqelərini namərdcəsinə atəşə tutdular və nəticədə sərhəddə toqquşmalar baş verdi.13 sentyabra keçən gecə erməni təxribatının qarşısını alarkən ağır döyüşlərdə Sadıxov Şəmistan Əbdülağa oğlu, Məlikov Vüsal Bəxtiyar oğlu, Zülfiyev Coşqun Ədail oğlu qəhrəmancasına şəhid olmuşlar. Ərazi bütövlüyümüzün qorunması uğrunda şəhadətə qovuşan qəhrəman oğullarımız heç vaxt unudulmayacaq, onların xatirəsi daim əziz tutulacaq.***

***Şəhidlər ölməz, Vətən bölünməz!***

## Lerik RİH-in başçısı Əkbər Abbasov Xəzər rayonunun Binə qəsəbəsində yerləşən Şəhidlər xiyabanını ziyarət edib





**24 sentyabar 2022-ci il tarixdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov Xəzər rayonunun Binə qəsəbəsində yerləşən Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib.**

Əkbər Abbasov 13 sentyabr 2022-ci il tarixində erməni təxribatının qarşısını alarkən şəhid olan Coşqun Zülfüzadənin ailəsilə görüşüb, öz dərin ehtiram və hörmətini bildirib, problemləri ilə maraqlanıb.

Burada torpağa tapşırılmış cəsur və qəhrəman oğullarımız Qarabağı 30 ilə yaxın bir dövrdə işğal altında saxlayan mənfur ermənilərdən azad edilməsi uğrunda rəşadətə vuruşmuş, vətən uğrunda gənc ömürlərini, şirin canlarını əsirgəməmişlər. Onların qəhrəmanlığı heç vaxt unudulmayacaq, xatirəsi əziz tutulacaq.

## Milli Qəhrəman Valeh Müslümovun doğum günündə xatirəsi anıldı





Lerik şəhərində şəhid Milli Qəhrəman Valeh Müslümovun doğum günündə xatirəsi anıldı. Qeyd olundu ki cəsur əsgər Valeh Müslümov 1992-ci ildə Qarabağ uğrunda döyüşlərə qatılmış, şəxsi şücaət, cəsurluq və qəhrəmanlıq göstərmiş, 20-dən çox yaralı əsgəri döyüş meydanından çıxarmışdır. Valeh Müslümov Füzuli, Goranboy, Ağdərə torpaqları uğrunda gedən döyüşlərdə xüsusilə fərqlənmişdir. Mərquşavan kəndində düşmənlə şiddətli döyüşdə Valeh Müslümov 23 yaşında igidliklə şəhid olmuş, Prezidentin fərmanı ilə ilk dəfə Milli Qəhrəman adına layiq görülən 11 nəfər əsgərdən biri olmuşdur.

Rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və şəhər sakinləri ilə birlikdə şəhidin məzarını və Lerik şəhərində Milli Qəhrəmanın əziz xatirəsinə ucaldılmış büstünü ziyarət edərək, üzərinə güllər düzdü.

Sonra rayon icra hakimiyyətinin başçısı Ə.Abbasov Milli Qəhrəmanın valideynləri ilə görüşdü, onlarla səmimi söhbət etdi.

## Anım Günü münasibətilə Lerik rayonunda ümumrayon tədbiri





**27 Sentyabr - Azərbaycan Respublikasında Anım Gününün keçirilməsinə dair Lerik Rayon İcra Hakimiyyətinin tədbirlər planına uyğun olaraq, Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasovun, rayonun hüquq mühafizə orqanları rəhbərlərinin, idarə, müəssisə və təşkilatların kollektivlərinin, şəhid ailə üzvlərinin, Vətən müharibəsi iştirakçılarının, ziyalıların, ağsaqqalların, ictimaiyyət nümayəndələrinin iştirakı ilə anım mərasimi keçirilib.**

Öncə Şəhidlər abidə kompleksi ziyarət edilib, kompleksin qarşısında Lerik Rayon İcra Hakimiyyəti adından əklil qoyulub və tər gül-çiçək dəstələri düzülüb.

Şəhidlər abidə kompleksi önündə Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan mərasimdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov çıxış edib. Bildirib ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızı azad edib. Bu möhtəşəm qələbənin şəhidlərimizin qanı, canı bahasına əldə edildiyini, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinin həmişə ehtiramla yad edildiyini diqqətə çatdırıb. Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsi həmişə ehtiramla yad edildiyini, şəhidlərin həyatı və döyüş yoluna həsr olunan tədbirlərin mütəmadi olaraq keçirildiyini vurğulayıb.

Tədbirdə Vətən müharibəsi Qəhrəmanı, şəhid mayor Amid Heydərovun atası Rəbbil Heydərov, şəhid anası Sevinc Babayeva, şəhid atası Mükafat Yaqubov, Vətən müharibəsi iştirakçısı Babaək Cəfərov çıxış edərək torpaqlarımızın azad olunması uğrunda Vətən müharibəsində iştirak etmiş qəhrəman oğullarımızın nümayiş etdirdikləri misilsiz rəşadətin xalqımızı qürurlandırdığını, rəşadətli Vətən övladlarının döyüş yolunun, onların şücaətinin, fədakarlığının gələcək nəsillərə həmişə örnək olacağını bildiriblər, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını ifadə ediblər.

Tədbirdə şəhid Arif Nuriyev adına Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü liseyin şagirdlərin ifasında şəhidlərimizə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

27 Sentyabr - Azərbaycan Respublikasında Anım Günü münasibətilə saat 12.00-da şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rayon ərazisində şəhidlərin xatirəsinə ağacəkmə aksiyaları keçirilib.

## Lerik Rayon İcra Hakimiyyətində vətəndaşlar dinlənildi



Rayon icra hakimiyyətinin inzibati binasında rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov tərəfindən vətəndaşların qəbulu keçirilib.

Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 85 vətəndaş, o cümlədən şəhidailələri, qazilər və müharibə iştirakçıları növbədənkənar qəbul edilib.

Qəbul edilən vətəndaşların müraciətləri əsasən işlə təmin olunma, qaz çəkilişi, maddi yardım, torpaq məsələləri, elektrik təsərrüfatı və digər social məsələlərlə bağlı idi.

Qəbulda rayon icra hakimiyyətinin başçısı Ə.Abbasov vətəndaşlar tərəfindən səsləndirilən müraciətlərin araşdırılması və icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verdi.

Vətəndaşlar müraciətlərinə baxılması üçün əlverişli və rahat şəraitin yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Hər həftənin 2-ci günü rayon icra hakimiyyətinin inzibati binasında vətəndaşların qəbulu keçirilir.

## Növbəti görüş-qəbul

**Vətəndaşların problem və təkliflərinin yerindəcə dinlənilməsi və həll edilməsi məqsədilə növbəti səyyar görüş - qəbul Rvarud və Veri kəndlərində keçirilib.**



Səyyar qəbulda rayon icra hakimiyyəti başçısı aparatının, rayonun hüquq-mühafizə orqanlarının və aidiyyəti təşkilatların məsul şəxsləri, eləcə də kənd ictimaiyyəti iştirak edib.

Ölkə rəhbərliyinin müvafiq tapşırığına əsasən keçirilən vətəndaşların səyyar qəbulunda Əkbər Abbasov görüşdə vətəndaşların səsləndirdikləri problemləri ayrı-ayrılıqda dinləyib və onların həlli yollarının araşdırılması üçün müvafiq qurumlara tapşırıqlar verib.

Həmçinin rayon icra hakimiyyətinin başçısı ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsinə inşa edilmiş Rvarud kəndində "Zirvə" və Veri kəndində Şəhidlər xiyabanı xatirə komplekslərini ziyarət edib.

Conu, Barzavu, Noda, Boykəndil, Nücü, Rvarud, Veri, Tikəband kəndlərində səyyar görüş-qəbullar keçirilmişdir.

# Tikəband kəndində şəhidlərin xatirəsinə inşa edilmiş bulaq kompleksinin açılışı olub





**29 sentyabr 2022-ci il tarixdə rayonun Tikəband kəndində I Qarabağ və Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış şəhidlərin xatirəsinə inşa edilmiş bulaq kompleksinin açılışı olub.**

Lerik Rayon İcra Hakimiyyəti başçısı Əkbər Abbasov və kənd ağsaqqalları tərəfindən bulaq kompleksinin üzərindən örtük götürülüb və önündə gül-çiçək dəstələri qoyulub.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov şəhid ailələrini və kənd sakinlərini salamlayıb və bulaq kompleksinin tikintisində dəstək göstərən və zəhməti olan hər kəsə minnətdarlığını bildirib.

Sonra rayon rəhbəri Vətən müharibəsinin 44 günü ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızı azad etdiyini, bu möhtəşəm qələbənin şəhidlərimizin qanı, canı bahasına əldə edildiyini, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinin həmişə ehtiramla yad edildiyini diqqətə çatdırıb.

Şəhid qardaşı Ruslan Süleymanov çıxış edərək şəhid ailələrinə, qazilərə göstərilən yüksək diqqət və qayğıya görə ölkə rəhbəri cənab İlham Əliyevə minnətdarlığını ifadə edib.

Sonra rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov Tikəband kəndində kənd ictimaiyyətinin dəstəyi ilə inşa edilmiş körpünün və 45 evə çəkilmiş su xəttinin açılışında iştirak edib.

# Lerik RİH başçısı Əkbər Abbasov şəhid ailələrinə baş çəkib

**27 sentyabr 2022-ci il tarixdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov anım günü münasibətilə Lerik şəhərində şəhid ailələrinə baş çəkib, öz dərin ehtiram və hörmətini bildirib və onların problemləri ilə maraqlanıb.**



Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildiriblər.

# Şəhid ruhlarına dərin ehtiram

Məlum olduğu kimi azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir. 1948-1953-cü illərdə Ermənistandakı öz tarixi dədə-baba torpaqlarından 150 minə yaxın azərbaycanlı deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə daha 300 minə yaxın azərbaycanlı öz doğma yurdundan qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir

Azərbaycanlılara qarşı törədilmiş soyqırımına dair Ulu Öndər Heydər Əliyev tərəfindən verilmiş ilk siyasi-hüquqi qiymət çox aktualdır. Ermənilərin tarixi ərazilərimizdə həyata keçirdikləri soyqırımı siyasətinə ilk dəfə Ümummilli Lider Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilmişdir. Ulu Öndərin 1998-ci il 26 mart tarixində imzaladığı Fərman ilə 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

44 günlük müharibə nəticəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etmişdir.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızdadalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyev 27 sentyabr - Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunması ilə bağlı 2020-ci 2 dekabr tarixində Sərəncam imzalamışdır. Bu addım şəhid ruhlarına, şəhidlərin doğmalarına ali ehtiramın göstəricisidir.

# Abituriyentlərlə görüş





**Lerik Rayon İcra Hakimiyyətində 2022/2023-cü tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək bal toplayaraq ali məktəblərə qəbul olunmuş Lerik rayonundan olan gənclərlə görüş keçirildi.**

Görüşdə rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov, Lənkəran-Astara Regional Təhsil İdarəsinin müdirinin müavini Rəhim Rəhimov, rayon icra hakimiyyəti başçısı aparatının məsul işçiləri, rayonun ümumtəhsil məktəblərinin direktorları və tələbə adını qazanmış gənclər iştirak edirdi.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov tələbə adını qazanmış gəncləri, onların valideynlərini və müəllimlərini yüksək nəticəyə görə təbrik edərək bildirdi ki, rayon üzrə ali təhsil müəssisələrinə qəbul olunan məzunların sayı ildən-ilə artır. Xüsusilə də 500-dən yuxarı bal toplayaraq ali məktəblərə qəbul olan gənclərin, o cümlədən qızların sayının artması çox sevindirici haldır.

Ulu Öndərimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə təhsilə və onun inkişafına böyük diqqət yetirilmiş, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün əlindən gələni etmişdir. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev Ulu öndərin qoyduğu ənənəyə sadiq qalmış, təhsilin inkişafına böyük töhfələr vermişdir.

Görüşdə Lənkəran-Astara Regional Təhsil idarəsinin müdirinin müavini Rəhim Rəhimov, A.Nuriyev adına Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü liseyi gümüş medalla bitirmiş, 593 balla Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olunmuş Aysun Hüseynzadə, Veri kənd tam orta məktəbinin məzunu, 515 balla Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat-informatika fakültəsinə qəbul olunmuş Seyidəli Əliyev çıxış edərək gənclərin təhsil alması üçün ölkəmizdə yaradılan yüksək şəraitdən razılıqlarını bildirdilər, göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevə, tələbələrlə görüşün keçirilməsinə görə rayon icra hakimiyyətinin rəhbərliyinə minnətdarlıqlarını ifadə etdilər.

Tələbələrlə səmimi söhbət edən rayon icra hakimiyyəti başçısı bir daha onları təbrik edərək ali məktəblərə qəbulda yüksək bal toplamış tələbələr rayon icra hakimiyyəti tərəfindən təşəkkürnamə ilə təltif etdi. Onlara qiymətli hədiyyələr verildi.

Tələbələrlə görüşdən sonra onların məzunu olduğu ümumtəhsil məktəbinin direktorları ilə görüşən rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov əldə olunmuş nəticələrə görə onlara təşəkkür etdi və qarşıda duran vəzifələr müzakirə olundu.

# ŞƏHİD VİDADİ CABBAROVUN QƏHRƏMANLIĞI

Vidadi Cəbrayıl oğlu Cabbarov 1997-ci ilin mart ayında özünəməxsus təbiəti olan Piran kəndində təvəllüd tapmışdır. Orta məktəbi bitirdikdən sonra, yəni 2015-ci ildə hərbi xidmətə yola salınıb. Əsgərliyi uğurla başa vurub, doğma kəndə qayıdıb. Evdə olarkən, atası Cəbrayıl, anası İradə xanım ona gələcək həyat yolu seçməkdə xeyir-dua verib deyirlər: "Oğul, indi sənin vətənə borcunu ödəmək vaxtındır. Vətəni, torpağı, yurdu, insanları sevmədən vətənpərvər olmaq mümkün deyil. Vətən sevgisi ilahi eşqdir. O, hər birimizin qanında, canında, ruhunda bərqərardır. Əbəs yerə demirlər ki, vətəni, torpağı sevməyən vətənpərvər olmaz. Vətən sevgisi ilahi eşqdir. O hər birimizin canında, qanında və ruhundadır. Əbəs yerə demirlər ki, torpağı qoruyanda vətən olur. Vətəni sevmək imandandır..."

Vidadi ata-ana öyüdünə, nəsihətinə qulaq asdı. Hərbiyə olan marağı, vətən məhəbbəti Vidadini yenidən orduya qaytarmağa səbəb oldu. 2018-ci ildə müddətdən artıq hərbi qulluqçu kimi gizirlik kursunu bitirdi, gizir hərbi rütbəsi aldı və Ağcabədidə xidmətini davam etdirdi.

Qarabağda torpaqlarımızın işğal altında qalması gizir Vidadini çox narahat edirdi. O, hərbçi yoldaşları ilə bu barədə tez-tez danışar, narahatçılığını ifadə edərdi və deyərdi ki,




düşmənin torpaqlarımızı işğal etməsi müvəqqətidir, həmişə əsarət altında qala bilməz, biz gec-tez torpaqlarımıza sahib durarıq...

Nəhayət, müharibə başladı, ermənilərin qəfil həmləsi cavabsız qalmadı, igid ərənlərimiz əks-hücuma keçdilər. Çox keçmədi ki, kəndlər, şəhərlər, qəsəbələr bir-bir azad olundu. Azadlıq ordusunun əsgərləri sırasında Vidadi Cabbarov öz cəsurluğu, qorxmazlığı, vətənə sevgisi ilə fərqləndi. O, Füzulinin, Cəbrayılın, Qubadlının azad edilməsi uğrunda döyüşlərdə şücaət göstərdi. Bir dəfə atası ona zəng vurub soruşmuşdu:

-Vəziyyətin necədir, oğul?

-İrəli gedirik, geriyə yolumuz yoxdur, narahat olmayın.

Döyüşün şiddətli çağında komandiri, polkovnik-leytenant Rəsul Quliyev şəhid oldu. Vidadi komandirinə müraciətlə demişdi: "Canım, komutanım! Döyüşdə səndən aralı düşdüm, səni itirdik. Narahat olma, qardaşım, sənin yanına gələcəyik..."

Döyüşdə qəhrəmanlıq göstərən Vidadi Cabbarov çoxlu sayda döyüş yoldaşlarını xilas etmişdir. Özü isə Qubadlının Balasoltanlı kəndində mina qəlpəsindən şəhid oldu. Vidadi Cabbarov valideynlərinə verdiyi sözə əməl elədi, vətən yolunda igidliklə şəhid oldu. Onun nəşini dayısı oğlu, polkovnik-leytenanat Mehman Orucov gətirdi, Piran kənd qəbirstanlığında torpağa tapşırıldı.

İllər, aylar keçsə də, onun döyüş şücaəti unudulmayacaq, gənclərə örnək olacaq.Vətənin ona verdiyi medallar qələbəmiizn rəmzi kimi həmişə parlayacaq.



**Sevər Babayeva,**
Piran kəndi

# QƏNİ CAMALZADƏNİN YARADICILIQ GECƏSİ



Lerik Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Lerik şəhərinin Mədəniyyət Mərkəzində görkəmli yazıçı-publisist, Prezident mükafatçısı, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü Hacı Qəni Camalzadə ilə görüş keçirilib.

Görüşü tanınmış şair, istedadlı publisist Ağacəfər Həsənli açaraq yazıçının həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib. Bildirib ki, Qəni Camalzadə 1956-cı ildə Lerik rayonunun Durğan kəndində dünyaya göz açıb. Kiçik yaşlarında ailəsi ilə birlikdə Bakı şəhərinə köçüb. Bakı şəhərinin 230 və 156 nömrəli tam orta məktəblərində təhsil alıb. 1977-ci ildə Azərbaycan Texniki Universitetini bitirib. İxtisası üzrə müxtəlif vəzifələrdə işləyib. 1992-1993-cü illərdə Qarabağ uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Qarabağ müharibəsi veteranı, təqaüdçüdür.

Tələbəlik illərində ədəbi yaradıcılığa başlayıb. İlk hekayəsi 1976-cı ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunub. "Azərbaycan", "Ulduz", "Literaturnıy Azerbaydjan", "Kirpi" və digər jurnallarda, "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzetlərində yumoristik və satirik hekayələri ilə oxucuların görüşünə gəlib.

1984-cü ildə "Yeni səslər" almanaxında da hekayələri çap olunub. "Yaxşı oğlanın "dayısı", "Sonuncu yeznə", "Qohumların əsiri" hekayə kitabları ilə ədəbiyyatda öz imzasını təsdiq edib.

Hacı Qəni Camalzadə son dövrlər roman janrına üstünlük verir. Romanları əvvəl "Azərbaycan" jurnalında, sonra kitab halında işıq üzü görüb. Əsərləri rus və ingilis dillərinə tərcümə olunub. On üç kitabın müəllifidir. Üç kitabı ingilis dilində Amerikada, hekayələri və "Zolotoy oslyonok" romanı rus dilində nəşr edilib.

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov, tarixçi Hüseynbala Əliyev, Əməkdar jurnalist İdris Şükürlü, şair Qəhrəman Əliyev, Azərbaycan Yazıçılar Birliyinin üzvü Hacı Mirzəxan Abbasov, Durğan kənd məktəbinin müəllimi Hikmət Sadat və başqaları yazıçının son illər çap olunmuş "Qızıl xotux", "Karxana", "Kiaksarın axırıncı savaşı" və "Şeytana daş atanlar" romanlarının geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılandığını, real həyat həqiqətlərini özünəməxsus ustalıqla qələmə aldığını vurğulayıb, istedadlı yazıçının yaradıcılığını yüksək qiymətləndiriblər.




Milli Qəhrəmanların Tanıtma İctimai Birliyinin Nərimanov rayon şöbəsinin sədri Ədhəm Məmmədov, şöbənin sədr müavini Nərmin Səfərova yazıçının Qarabağ müharibəsi mövzusunda qələmə aldığı əsərlərinin gənclərin vətənpərvərlik tərbiyəsində rolundan söhbət açıb, lerikli şəhidlərin valideynlərinə "Qəhrəman Ana", "Gənc Azərbaycan əsgəri" diplomlarını və 44 günlük müharibədə arxa cəbhədə göstərdiyi fədakarlığa, vətəndaşlıq borcunu layiqincə yerinə yetirdiyinə görə bir qrup fəala fəxri diplomlar təqdim ediblər.



Görüşdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı cənab Əkbər Abbasov çıxış edərək yazıçının özünəməxsus dəsti-xətti olduğunu, dövrlə, zamanla səsləşən əsərlər yaratdığını bildirib. Nəsrimizi yeni əsərlərlə zənginləşdirən Qəni Camalzadənin ədəbiyyatımızın xaricdə təbliğinə dəyərli töhfələr verdiyini vurğulayan icra başçısı yazıçıya yeni yaradıcılıq uğurları arzulayıb və ona xatirə hədiyyəsi edib.

Tədbirdə Hacı Qəni Camalzadə doğulub boya-başa çatdığı doğma rayonunda keçirilən görüşdən, ünvanına deyilən səmimi fikirlərdən, yaradıcılığına verilən yüksək qiymətdən məmnun qaldığını bildirib. Yaradıcılıq planlarından danışaraq əsərlərində cəmiyyəti düşündürən problemlərdən, xeyirlə şərin mübarizəsindən, həyat həqiqətlərindən bəhs etdiyini, yaxın vaxtlarda yeni kitablarla oxucuların görüşünə gələcəyini deyib.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika" qəzeti**

# ZİRVƏNİN ZİRVƏSİSƏN, KAPİTAN CƏLİL!



(Əvvəli ötən sayımızda)

Qazax rayonunun ərazisində Azərbaycan-Ermənistan dövlət sərhədi keçir. Kapitan Cəlil Cavadovun xidmət etdiyi tabor düşmənlə üzbəüz sərhədi gecə-gündüz ayıqsayıq qoruyurdu. Onun burada vəzifə şəxsi heyəti vaxtı-vaxtında isti yeməklə təmin etmək, döyüş növbəsindən qayıdan əsgərlərin istirahətini, hamamı, camaşırxananı təşkil etmək idi. Bütün bunlar da qaydasında idi.

Vəzifə pillələrində tez-tez yüksələn Cəlil bir müddət sonra Qusar rayonunda yerləşən hərbi hissədə tabor komandirinin döyüş tapşırığı üzrə müavini təyin edilir. Cəlil burada qısa müddət xidmət etdikdən sonra cəbhədə vəziyyət yenidən gərginləşir. Düşmən Tovuz rayonu istiqamətində atəşkəsi pozmuş və namərdcəsinə general-mayor Polad Həşimov şəhid edilmişdi. Artıq hər kəsə müharibənin başlana biləcəyi sirr deyildi. Xalq ayaq üstə idi. Sentyabrın 27-də müharibə başladı...

### Ordum keçir Qarabağdan

***Şəhidin dayısı, ehtiyatda olan polkovnik Aslan Hüseynov o günləri belə xatırlayır:***

- Müharibə başlandıqdan dərhal sonra sentyabrın 27-də səhər çağı Cəlilin də xidmət etdiyi briqada həyəcan siqnalı ilə qaldırıldı. İlk növbədə briqadanın döyüş tapşırığı Füzuli, Cəbrayıl istiqamətində düşmənin hücumunun qarşısını almaqla əks-hücuma keçmək idi. Artıq oktaybrın birinci günləri Qusar briqadası Cəbrayıl rayonunda döyüş əməliyyatlarına başlamışdı. Qanlı döyüşlər gedirdi. Düşmənin 30 ilə yaxın möhkəmləndirdiyi və ermənilərin keçilməz hesab etdiyi "ohanyan xətti" də itkilərimiz hesabına olsa belə, yarılmışdı. Düşmənin geri çəkilməyi, artıq bəzi bölmələrinin geri qaçmağı məlum idi. Çoxlu sayda itki vermişdi. Döyüşlərin belə çətin getməsinə baxmayaraq, Cəlil imkan tapdıqca bizimlə telefon əlaqəsi yaradırdı. Belə danışıqlar zamanı biz ona ehtiyatlı olmasını, özünü qorumasını tapşırırdıq. Cəlil isə *"Bu döyüşdə biz komandirlər əsgərlərin ardınca yox, əsgərlər bizim arxamızca gedir, geriyə yol yoxdur, düşmənə aman verməyəcəyik. 28 illik işğala tezliklə son qoyulacaq"* cavabını verdi.

Şiddətli döyüşlər davam edir, hər kənd, hər rayon, şəhər, qəsəbə şəhidlərimizin qanı bahasına adımaddım geri alınırdı. Cəlilgilin taboru iki hissəyə ayrılmışdı: onlardan birinə kapitan Cəlil Cavadov başçılıq edirdi.

Artıq Cəbrayıl rayonu dümendən tam azad edilmişdi, qarşıda Füzuli rayonu idi. Cəlil Cavadov çox sevinirdi. "Qarabağda münaqişənin müharibə yolu ilə həll variantı yoxdur" deyən siyasətbazların ümidləri puça çıxırdı. Düşmən məyus olmuşdu. İşğalçılar Füzuli rayonunu 30 ilə yaxın vaxt ərzində daim dağıtmışdılar. Xalqın evlərinin və Azərbaycan dövlətinin əmlakı hesabına keçilməz müdafiə qurğuları, istehkamlar və bunkerlər tikmişdi. Lakin bunların heç biri mənfur düşmənə kömək etmədi. Füzuli rayonu düşməndən tam azad edildi. Düşmən vurnuxa-vurnuxa geri çəkilir, nə edəcəyini bilmirdi. Onlara nə xaricdəki havadarları, nə də ki, qatı millətçilər kömək edə bildi. Burada yerləşən erməni hərbi hissəsi demək olar ki, son əsgərinə qədər məhv edildi. Lakin bu döyüşlərdə Cəlilin başçılıq etdiyi tabor da böyük itki vermişdi. Şəxsi heyətin arasında şəhid və yaralılarla bərabər düşmən mövqeyində qalan yaralı əsgərlərimiz də qalmışdı. Səhərin açılmasını gözləmək yaralıların qan aparması, ya da düşmən tərəfindən aşkar edilməsi demək idi. Dağın şəxsi heyətin qeydinə qalan, hər əsgəri üçün canından keçməyə hazır olan kapitan Cəlil Cavadov şübhəsiz, bununla razılaşa bilməzdi. Gecə ara-sıra atəş səsləri gəlsə də, nisbi sakitlik idi. Araz çayından qalxan dumanın köməyə gəlməyindən istifadə edən Cəlil özü əsgərlərin ardınca düşmən mövqelərinə tərəf sürünəsürünə getməyə başladı. Çox böyük məharət və cəsarətləo, təqribi bir səmt götürdü. Cəlil düz yaralı əsgərlərin köməksiz əziyyətdə qaldığı yerə çatdı. Kəməri ilə yaralını özünə bağladıqdan sonra yenidən sürünə-sürünə geri qayıtmağa başladı. Böyük əziyyət bahasına əsgərini tibbi



sanitar bölməsinə təhvil verməyi bacardığı üçün Cəlil çox sevindi.

Müharibə davam edirdi. Hər yeri tüstü-duman bürümüşdü, mərmi səsindən qulaq tutulurdu, düşmən tezliklə məğlub olmaq istəmir, on illərlə özlərini "qalib ordu" hesab edirdilər. Çox çaşqın vəziyyətə düşmüşdülər. Bir çox yerlərdə erməni komandirləri tabeliyindəki bölmələri, əsgərləri və hərbi texnikanı atıb qaçmışdılar.

### Vətən qədər müqəddəs

Kapitan Cəlil Cavadovun daxil olduğu bölmə Hadrutdan Xocavənd - Qırmızıbazar istiqamətində durmadan irəliləyirdi. Taborun yan tərəfindən Cəlilgil Xocavənd və Qırmızı bazarın alınmasında mühüm strateji yüksəkliklərdə yerləşən Cütcü kəndi istiamətində döyüşə hazırlaşırdılar. Cütcü kəndinin meşə tərəfində yerləşən yüksəklikdə düşmən mövqe tutmuş və kəndə gedən yolu kəsmişdi. Şəxsi heyəti tam tərkibdə burada döyüşə salmaq itkinin çox olması demək idi. Ona görə də kiçik bir qrupla yüksəkliyə gəlib həmlə etmək qərarı alınır.

### Vətənə canım qurban

Komandir kapitan Cəlil Cavadov sıranın qarşısında həyati vacib olan yüksəkliyin alınmasına könüllü olaraq 10 nəferinçıxmasını əmr edir. Sıradan on nəfərdən artıq əsgər, gizir və zabit çıxır. Könüllü çıxanların içərisində iki qardaş Bəhram və İman da var idi. İki qardaşın eyni zamanda döyüşə girməsinə razı olmayan komandir çox inad edən qardaşları bir-birindən ayıra bilmədi və onların son arzusu olaraq bu istəklərini yerinə yetirməyə məcbur oldu. Qrup səhər tezdən Cütcü yüksəkliyinə tərəf istiqamət götürdü. Yüksəkliyin ətrafı meşəlikdən ibarət olsa da, yüksəkliyin qarşısı və özü açıqlıq idi. Düşmən yüksəklikdə özünə mövqe tutmuşdu. Cəlilgil səssizcə yüksəkliyə dırmaşmağı bacarmış və yüngül silahlarla silahlanmışdılar. Düşmən mövqelərinə az qalmış duyuq düşən erməni quldurları saylarının çox olmasından və Cəlilgildən fərqli olaraq minomyot və digər iri kalibrli silahlardan istifadə etməklə ölüm-dirim savaşına başladılar. İlk olaraq düşmən gülləsi Bəhramın ayağına dəydi, bunu görən qrupdakı zabit-leytenant ona yardım etmək istəyəndə İmanın da vurulduğunu gördü. İki qrup üz-üzə döyüşürdü. Cəlil şəxsi heyəti idarə etməklə bərabər, özü də düşmənə sarsıdıcı zərbələr endirməkdə idi. Hər iki tərəfdən itkilər çoxalmağa başlamışdı. Düşmən Cəlilgilin geri çəkilməyəcəyini gördükdən sonra əlavə olaraq, minomyot atəşinə üstünlük verdi. Lakin yüksəkliyin mənfur düşməndən azad edilməsini qarşılarına məqsəd qoyan Cəlilin qrupu bir addım da olsa geri çəkilmədi, əksinə, bir az da irəli getməyə başladı. Qrupdan artıq hər kəs düşmən gülləsinə tuş gəlmişdi. Lakin Cəlil nəinki geri çəkildi, üstündə olan sonuncu silahı - qumbarasını əlinə alıb, ayaqüstə duraraq, mənfur düşmən üzərinə sonuncu həmləsini etdi. Düşmənin atdığı xain güllə Cəlilin sinəsini yardı. On iki nəfərlik döyüşə girən qrupdan yeganə sağ leytenant yaralı vəziyyətdə sonradan aşkar edilərək, hərbi hospitala təxliyə edildi. Düşmən tərəfdən sağ qalanlar köməyə gələn PUA-larımız tərəfindən tam məhv edildi. Cütcü yüksəkliyi azad edildi. Taborun əsas heyəti artıq düşmənin qaldığı mövqelərə çatmışdı.



Tapşırıq kapitan Cəlil Cavadovun və 11 nəfər əsgərin canı və qanı hesabına yerinə yetirilmişdi. Cəlilgilin cəsədləri gecə saatlarında taborun əsgərlərinin çiynində yüksəklikdən aşağı salındı. Bu döyüş qəhrəman Cəlilin, İmanın, Bəhramın və digər igidlərimizin son döyüşü və əbədiyyətə gedən yolu oldu. Onlar vətənə qurban gedən igid qəhrəmanlar oldular. Əsrlərə söykənən zəngin milli-mənəvi dəyərlərimiz şəhidlərimizin müqəddəs ruhu ilə təzələndi. Sanki şəhid ruhları dilə gəlib deyir: ***"Biz vətənə özümüzü qurban verdik, gələcək nəsil bu müharibə qəhrəmanlarını heç vaxt unutmasın. Unutmasın ki, şəhid xatirəsi vətən qədər müqəddəsdir..."***

### Əbədiyyət zirvəsində abidə

29 oktyabr 2021-ci il. Əzəmətli Talış dağlarının zirvəsi ağ örpəyə bürünmüşdü. Lerik rayonunda bir azdan möhtəşəm memorial abidə kompleksinin açılış mərasiminin son tamamlama işləri gedirdi.

Müdafiə Nazirliyinin hərbi orkestrinin müşayiəti ilə böyük insan kütləsi abidəyə doğru hərəkətə keçmişdi. Yüzlərlə insan, şəhid ailəsi, müharibə iştirakçıları, rayon rəhbərliyi, rayon ictimaiyyəti və respublikanın hər yerindən gələn qonaqlar əllərində gül çələngləri vətən torpaqlarının azadlığı uğrunda canından keçmiş kapitan Cavadov Cəlil və 47 lerikli şəhidin xatirəsini yad etməyə tələsirdi.

Bu möhtəşəm abidə ehtiyatda olan polkovnik Hüseynov Aslan Canəli oğlu tərəfindən Cəlil kimi II Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış Amidin, Əbülfəzin, Əliqismətin, Bəhramın və İmanın, Altay və Elgünün, Ramin və Ceyhunun, Tarzan və Çingizin, Samirin və digər lerikli 48 şəhidin xatirəsini əbədiləşdirmək məqsədilə ucaldılmışdı. Ətrafında 48 şəhidin hər birinin adına ağac əkilmişdi...

(Ardı gələn sayımızda)

# GÜRDƏSƏRDƏ ABADLIQ İŞLƏRİ

## *Kəndin problemləri tam həllini tapmayıb*



Gürdəsər kəndi Lerik rayounun iri kəndi olmaqla, həm də yetirdiyi ziyalıları ilə tanınır. Açığını deyək ki, son on illiklərdə kənd baxımsız olub, problemlər üst-üstə yığılıb qalıb. Bu kənd Əməkdar incəsənət xadimi adını almış, Moskvadan bu yana məşhur olan, haqqı həmişə uca tutduğu üçün bəzi bədxahların xoşuna gəlməyən, lakin hörmət-izzəti itməyən, mərd, qorxmaz və bütöv kişilərin sırasında adı çəkilən istedadlı yazıçı, Məmmədhüseyn Əliyein yaşayıb-yaratdığı kənddir bu kənd! Burada Əməkdar elm xadimi Fazil Ağayev kimi alimlər yetişib.

Mətləbdən uzaqlaşmayaq. Bəli, həqiqətən bu kənddə əhalinin firavan yaşaması üçün bir neçə həll olunmamış iş qalıb. Kəndin mərkəzinin işıqlandıran küçə işıqları yoxdur, 3 km-dək Əliabad-Gürdəsər yolu asfalt olunmayıb, mərkəzi küçədən iki maşın qarşı-qarşıya gələndə bir-birini ötüb keçə bilmir. Gürdəsər kəndinə mavi qaz kəməri çəkilməyib. Əhali məcbur olub odunla, digər vasitələrlə qışı birtəhər keçirir. Meşəyə də heç kəsi buraxmırlar. Bir maşın odunun qiyməti 350-400 manatdır. İndi gəl yaşa görüm necə yaşayırsan. Elə Şəngədulanın, Züvüçün, Zenonunun, Nücü-Lərmərudun, Xanagahın, Mulalanın, Buruğun, Şivlə və Gendoğun da aqibəti eynidir.



Axı, bir Gürdəsərdən danışırdıq. İndi kəndin mərkəzi küçəsi genişləndirilir, yola yaxın çəpərlər sökülür. genişləndirilir. Yola daş, çınqıl daşınır və hamarlanır, bir neçə yerdə isə borular qoyulur.

Kənddə iki bulaq təmir edilib, iki artezian quyusu qazılıb. 3 artezian quyusu da nəzərdə tutulub. Ayrıca çənlər tikiləcək, oradan məhəllərə su paylanacaq. Mərkəzi bulağın təmiri nəzərdə tutulub, küçə işıqları qurulacaq, məhəllələr işıqlandırılacaq. Yol-abadlıq işlərinin həyata keçirilməsində kəndin fəallar, adının çəkilməsinin istəməyən xeyriyyəçilər, iş adamları, ziyalılar təşəbbüs göstərirlər. Müasir tipli texnikanı idarə edən Ramal Şirinov, sürücülərədən Müşfiq, Aslan, Tahir və Hafiz abadlıq işlərində işgüzarlıq nümunəsi göstərirlər.

Lerik Rayon Icra Hakimiyyətinin başçısı Əkbər Abbasovun göstərişi ilə 52 saylı Yol İstisman MMC-nin qreyderi gürdəsərlilərin köməyinə göndərilib. Qreyderlə yola daş, çınqıl yayılır.

Gürdəsər Xeyriyyə Cəmiyyətinin sədri İqrar Həsənov kənddə yaşamasa da dəd-baba yurdunun problemlərini həll etməkdə, kənd sakinlərinin abad və rahat yaşamasında, nəhayət, Gürdəsərin həmişə qonaq-qaralı olmasında maraqlıdır. O deyir ki, bizim kənd - bizim evimizdir. Burada atalarımızın, babalarımızın ruhu dolaşır. Kəndə biz can yandırmasaq, bəs kim can yandıracaq?

**P.S.**

*İndi Lerikin bəzi kəndlərində vaxtı çatmış problemlərin həlli üçün bir oyanış hiss olunur. Uğur olsun.*

**Əkrəm Abdullayev,**
**AJB-nin üzvü**

# TƏLƏBƏ ADIN MÜBARƏK!

Adlarına, şəxsiyyətlərinə böyük hörmətlər, sonsuz rəğbətlər bəslədiyimiz, son dərəcə zərif, həssas insanlar, doğma qardaşım və bacım qədər dəyərli, çox humanist, vətənpərvər, zəngin mənəviyyat sahibləri EMİN müəllim və KƏMALƏ xanım ƏLİYEVLƏRİN ağıllı-kamallı, çox istedadlı oğlu **İLKİNİ** böyük uğurlarla Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olması münasibətilə təbrik edir, ən xoş və gözəl arzularımı bildirirəm.



**Arzu dolu bir ürək,**
**Hər an sevinsin gərək.**
**Ağıllı İLKİN bala,**
**Arzulara çat, bala.**
**Gözəldir həyat, bala,**
**SƏN bizi ucalt, bala!**

**Dünən SƏN şagird idin,**
**Bu gün isə tələbə.**
**Qoy SƏNƏ qismət olsun,**
**Ömrün boyu qələbə.**
**Yollarına gül əkək,**

**Tələbə adın mübarək!**
**Bitirdin məktəbi, qiymətin əla,**
**SƏNƏ kömək oldu ALLAH-TƏALA.**
**Ucaldın göylərə, yetdin kamala,**
**Yollarına gül əkək,**
**Tələbə adın mübarək!**

**Keçdi məktəb illəri,**
**Heç qaytarmaq olarmı**
**O qayğısız günləri?!**
**Keçdi o dəm, o zaman,**
**SƏN əlaçı bir balam,**
**Tələbə adın mübarək!**

**Çalışqan şagird idin,**
**Oldun indi tələbə.**
**Qoy sənə qismət olsun,**
**Ömrün boyu qələbə.**
**Yollarına gül əkək,**
**Tələbə adın mübarək!**

**VAHİD sənin qardaşın,**
**Uşaqlıqda yoldaşın.**
**Böyüyəndə sirdaşın,**
**Yollarına gül əkək,**
**Tələbə adın mübarək!**

**Sevincləri bölürük,**
**Sevinirik, gülürük.**
**Biz də arzu edirik,**
**Gəlin bir yerdə deyək,**
**Tələbə adın mübarək,**
**Tələbə adın mübarək!**

**İRADƏ GÖZƏL VƏLİBƏYLİ,**
*filologiya üzrə fəlsəfə doktoru,*
*şair-publisist, "QIZIL QƏLƏM"*
*media mükafatı laureatı,*
*Bakı-Salyan, 2022*

# Lerikin unikal təbiəti dünyanı heyran edir

**Ill yazını cənubun ekoloji aləminə həsr etməyim təsadüfi deyil. Yol boyu, eləcə də Lerikdə olarkən təbiətin füsunkar gözəlliyi bizi valeh etmişdi. Dağların sinəsini yarıb, düz uca zirvələrində bərqərar olan ağacların əzəməti, sıx yaşıl meşələrin cəlbedici görünüşü, dağ silsiləsi boyu müxtəlif bitki növlərinin, eləcə də müalicəvi əhəmiyyətli otların olması nəfəs almağımız üçün açıq-aşkar oksigen mənbəyidir. Biz də bu barədə qısa məlumatları yığcam da olsa oxucuların diqqətinə çatdırmaq istədik.**



Bəşər övladı dünyada ekoloji tarazlığın pozulmasından, xüsusilə qlobal istiləşmədən, baş verən müxtəlif fəlakətlərdən çox narahatdır. Dünyanın aparıcı dövlətlərinin başçıları, alimlər, ekoloqlar bir araya gələrək ekoloji fəlakətlərin qarşısını almaq, ekoloji tarazlığı bərpa etmək üçün vasitələr arayırlar. Azərbaycanda ekoloji problemlər başqa dövlətlərlə müqayisədə daha sürətlə həll olunur. **Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Ekologiya meşələri hər bir ölkə üçün, hər bir vətəndaş üçün vacib olmalıdır. Bu, insanların sağlamlığıdır. Sağlam ekoloji mühit, sağlam hava, təmiz su - bütün bunlar insanın həyatı üçün ən əhəmiyyətli məsələdir"**.

Təbiətin "yaşıl ciyəri", gözəllik sərgisi, estetik tərbiyədə mühüm rol oynayan meşə təkcə tikinti və maşınqayırmada böyük əhəmiyyət daşımır, o həm də biosferdə oksigen yaradır, bol su, enerji mənbəyidir. Meşələr susaxlayıcı, sunizamlayıcı əhəmiyyətə malikdir, tarlaqoruyucu vasitədir, havanı və nəmliyi tənzimləyir, bir sözlə, bizim milli sərvətimizdir. Azərbaycanın cənub bölgəsi nadir relikt ağacları ilə zəngindir. Misal üçün qeyd edək ki, Lerikin meşələri nadir ağaclarla daha çox zəngindir və bu ərazidə məskunlaşmışdır. Dəmirağac, şabalıdyarpaq palıd, fıstıq, azat(nil), qaraçöhrə, vələs, şümşad və sair ağac növlərini göstərmək olar.

Mən Lerikdə olarkən, tanınmış qələm ustası, Əməkdar jurnalist, bir neçə maraqlı kitabların müəllifi İdris Şükürlü ilə görüşüb söhbət etdik. O, mənə çap etdirdiyi "Ekologiyanın vətəni bütün dünyadır" adlı analitik oçerkini tanış olmaq üçün təqdim etdi.O, məqalədə qeyd etmişdir ki, hələ XIX əsrdə Lerikin meşələri xarici ölkə botanika alimlərinin, səyyahların, etnoqrafların diqqətini cəlb etmiş və nadir meşə örtüyü barədə qiymətli fikirlər söyləmişlər. Məsələn, XIX əsrin alman botanik-alimi F.Qoqenhager Lerikin kəndlərini gəzərək, dərman bitkilərinin xalq təbabətindəki müalicəvi əhəmiyyətini tədqiq edirdisə, Nobel qardaşlarını Talış meşələrindəki dəmirağacı və qoz ağacından mənfəət əldə etmək daha çox maraqlandırmışdır. Məşhur fransız səyyahı və yazıçısı Aleksandr Düma 1858-ci ildə Azərbaycana gəlmiş, Lənkəranda, Astarada olarkən Lerikə də gəlmiş, bu torpağın fauna və florası, xalqın adət-ənənələri, maraqlı şəxsiyyətləri ilə tanış olmuş, fikir söyləmişdir. Dünya şöhrətli təbiətşünas-alim Həsən Əliyev "Həyəcan təbili" kitabında Talış meşələrini təbiətin canlı muzeyi adlandırmışdır. O, bu regionu təbii botanika bağına və dendroparka bənzətmişdir. Məşhur alim Aleksandr Qrossheym əsas tədqiqatlar apararkən, Lerik rayonunda da olmuş, topladığı ən maraqlı məlumatları kitabında qeyd etmişdir.

Azərbaycanda, cənub regionunda, eləcə də Lerik rayonunda nadir meşələrin qorunub saxlanmasına, yaşıllıqların sayının artırılmasına, mühafizə edilməsinə diqqət yetirilir.

Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iclaslarında ekoloji problemlərə həsr olunmuş müşavirədə ekoloji tarazlığın bərpa edilməsi, ətraf mühitin qorunması, yaşıllıqların genişləndirilməsi istiqamətində görülən işlər, qarşıda duran vəzifələr barədə ətraflı məlumat verərək, bir vacib amili önə çəkir ki, hazırda ölkədə həyata keçirilən ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin sağlamlığının qorunmasından, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi və davamlı inkişafın təmin edilməsindən ibarətdir. Sağlamlığımızı təmin etmək üçün ilk növbədə təbiəti sağlamlaşdırmaq lazımdır.



**Səadət Sultan,**
yazıçı-jurnalist

# 27 sentyabr Qələbəmizin dönüş nöqtəsi

## 44 gündən sonra qazanılan şanlı qələbə

**27 sentyabr 2020-ci il Azərbaycan tarixində yeni və şanlı bir səhifədir. 30 ildən artıq bir zamanda torpaqlarımızın 20 faizi erməni faşistlərinin tapdağı altında idi. Tarixin müxtəlif dövrlərində torpaqlarımızı işğal edərək soydaşlarımızı qanına qəltan edən ermənilərə verilən layiqli dərsin başlanğıcı oldu 27 sentyabr. Anım günü olan 27 sentyabr həm də soydaşlarımızın xatirəsində yumruq kimi birləşdiyimiz bir gün oldu.**

Azərbaycan dövləti tarixi bir dövlətdir. Minilliklərin süzgəcindən keçib gələn torpaqlarımızda süni surətdə ermənilər yerləşdirilib. Səmimiliyimizin nəticəsidir ki, bu gün torpaqlarımızda yer verdiyimiz erməni millitaristləri bizə qarşı torpaq iddiasına düşdülər. Havadarlarının köməyi ilə torpaqlarımızı işğal etməyə də nail oldular. Azərbaycan torpaqlarında öz dövlətlərini quran ermənilər Sovetlər İttifaqı dağıldıqdan sonra Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaşamaq həvəsində bulundular.



Çox şükürlər olsun ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəldiyi gündən Azərbaycanda dövlətçilik ənənələrinin bərpa olunması işi başlandı. Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin hakimiyyəti illərində Azərbaycan yeni inkişaf mərhələsinə daxil oldu. Beynəlxalq təşkilatlar Azərbaycan ərazisinin işğal olunmasını bilə-bilə təcavüzkara qarşı heç bir əməli addım atmadı. Doğma ata-baba yurdlarımızın düşmən tapdağından azad olunması üçün, bütün sahələrdə olduğu kimi, xüsusən ordu quruculuğu işinə xüsusi diqqət ayrıldı. Ordu quruculuğu sahəsində aparılan uğurlu islahatlar bir daha sübut etdi ki, Azərbaycan öz ata-baba torpaqlarını geri qaytarmağa qadirdir. Nə qədər səmimi, mehriban olsaq da, torpaqdan pay olmaz prinsipi yekdir. Bu minvalla da dəfələrlə Ermənistan Respublikasının rəsmi nümayəndələri ilə görüşlərdə sülh yolu ilə torpaqların qaytarılmasını tələb etdi. Amma ermənilər kimlərəsə arxayın olub danışıqlardan boyun qaçırdılar.

Azərbaycan dövləti isə ordu sıralarını modernləşdirdi, güclü zabit heyəti formalaşdırdı. Beynəlxalq hüquq qanunlarına məhəl qoymayan erməni rəhbərləri sərsəm bəyanatlar verərək Azərbaycanı yeni əraziləri zəbt etməklə hədələməyə başladılar. Amma onlar bunu yaxşı bilməli idilər ki, bu xalqın da səbr kasası var, bu kasa daşdısa, ətrafını belə tanımır.

Həqiqətən də 27 sentyabr 2020-ci il tarixdə ordumuz ermənilərin Azərbaycana qarşı törətdikləri təxribata cavab verməli oldu. Orduya "İrəli!" əmri Ali Baş Komandandan gəldi. Elə ilk saatlardan, ilk günlərdən müzəffər ordumuzun əsgər və zabitləri düşmənə sarsıdıcı zərbələr endirməyə başladılar. Saatbasaat, günbəgün işğal altında olan kənd, şəhər və qəsəbələrimiz düşmən tapdağından azad olunmağa başlandı. Özünü itirən ermənilər hara gəldi qaçmağa başladılar. Silah-sursatlarını, hətta namuslarını qoyub qaçmağa başladılar. Sonra alçaq hərəkətlərə əl atdılar. Döyüş meydanında qarşı-qarşıya gələ bilməyən ermənilər dinc əhaliyə qarşı qadağan olunmuş silahlardan atəş açmağa başladılar. Çoxlu sayda dinc sakinlər yaralandı və qətlə yetirildi. Amma şanlı ordumuz bunun cavabını artıqlaması ilə döyüş meydanlarında verdi. 44 gün davam edən müharibədə ordumuzla bacara bilməyən tör-töküntü erməni dığaları qarşımızda diz çökərək ağ bayraq qaldırmağa məcbur oldu. Ermənistanın baş naziri həmin zaman qaçıb siçan deşiyinə girdi. Təslim aktını da elə bir yerdə imzaladı. Bundan sonra bütün dünya dövlətlərinin aparıcı ordu rəhbərləri Azərbaycan əsgər və zabitlərinin qüruruna, döyüşkənliyinə heyranlıqla münasibət bəslədilər. Bu gün Azərbaycanın şanlı ordusu dünyanın 50 ən güclü ordusu sırasında özünə yer alır. **Artıq qürurla deyə bilərik ki, bizim ordumuz qalib ordu, xalqımız qürurlu xalqdır.**

Vətən məfhumu müqəddəsdir. Belə bir deyim var: "Torpaq su ilə qarışanda palçıq, qan ilə qarışanda isə Vətən olur". İşğal altında olan torpaqlarımız şəhid övladlarımızın qanı bahasına azad oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə isə Ulu Tanrıdan şəfa diləyirik. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Onlar daim qədirbilən xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.

Atalar yaxşı deyib: "Torpağı əkibbecərmirsənsə, onu qorumağa, qorumursansa, əkib-becərməyə dəyməz". Həqiqətən də Azərbaycan dövləti torpağını həm əkib-becərir, həm də qoruyur. 30 il düşmənin tapdağında olan torpaqlarda ermənilər bir daş üstə daş belə qoymamış, kənd, şəhər və qəsəbələr yerləyeksan olunmuşdu.

Qələbədən heç bir il keçməmiş, yurd yerlərimiz artıq abadlaşmağa başlayıb. 30 ildən bəri xarabalığa çevrilmiş bu yerlərə baxanda adamın ürəyi ağrayırdı. Ermənilər özləri də yaxşı bilirdilər ki, bu yerlər onların deyil, ona görə də bir daşı belə daş üstə qoymayıblar.

Az bir zaman kəsiyində müasir tələblərə cavab verən asfalt yol çəkilib başa çatmaqdadır. Füzuli şəhərində artıq hava limanı istifadəyə verilib. Bu hava limanına artıq uçuşlar yerinə yetirilir. Azərbaycanın incəsənət beşiyi olan Şuşada artıq bir çox idarə və müəssisələr istifadəyə verilib. Görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsi, Gövhər Ağa Məscidi və digər yerlər artıq öz gözəlliyini almaqdadır.

Dünya dövlətlərinin rəsmi nümayəndələri, jurnalistlər də ermənilərin vəhşiliklərinin bir daha şahidi olmaqdadırlar. Şuşada, Laçında, Füzulidə və digər işğal olunmuş kənd, şəhər və qəsəbələrimizdə dağıntıları öz gözləri ilə görüb, bir daha erməni vəhşiliyinin şahidi olublar.

Atalarımız yaxşı deyib. "Haqq nazilər, amma üzülməz". 44 günlük müharibədə haqq öz yerini tutdu. Yağı düşmənin başı "dəmir yumruq"-la birdəfəlik əzildi.

**Yaşasın Ali Baş Komandan!**
**Eşq olsun Müzəffər Azərbaycan Ordusuna!**

**R.Z.Sadıxov**

# BÖYÜK FİLOSOF VƏ MƏNTİQ ALİMİ

XVI əsrin böyük filosof və məntiq alimi Məhiyəddin Talışi 1550-ci ildə Dırıq mahalında anadan olmuşdur. Dırıq dedikdə Lerik rayonunun bir bölgəsi, ərazisi nəzərdə tutulur.

Mahiyəddin Talışi Yaxın Şərq ölkələrində təhsil alan müdrik filosof, görkəmli alimlərdən elm və məntiqi, qabaqcıl fikirləri mənimsəmiş, dövrünün böyük nüfuza malik şəxsiyyəti, "tayfa ağsaqqalı" qaliblərin ən seçilmişi olan asnaqaranlı Babagil" adlandırılmış Babagilin (əsl adı Nizaməddin Əmirə Şahsevər Gilani Kəsgəri) müridlərindən olmuşdur.

Görkəmli alim "Meşhaciət-talibin" (Tələbələrin proqramları - 1588), "Təhrüritəni" (Redaktə edəni oyandıran kitab) və "Şərhi isağuci" adlı məşhur əsərlərini göstərmək olar. Məntiqdən bəhs edən sonuncu əsər Əsirəddin Əbhərinin "Şərhi isağuci" (Kateqoriyalara girişin izahı) adlanır. Əlyazması katib Seyid Əhməd ibn Xan Əhməd tərəfindən hicri 1008-ci (miladi 1629) ildə köçürülmüşdür. 1629-cu ildə vəfat etmiş alimin qəbri şanlı mürşüdü Nizaməddin Əmirə Şahsevər Gilaninin, yəni Babagilin qəbrinin yanındadır.

**"Lerik"**

## UCALDI ŞANLI BAYRAQ

Dilində Vətən sözü məhəbbəti bir ümman,
Məsləyinə and içdi neçə -neçə qəhrəman.
Torpağın keşiyində nə qar bildi, nə boran,
Həmlələri uğurlu istehkamlar yararaq.
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

Qəhrəman oğullara arxalandı bu vətən,
Pöhrələnən inamın, mayası yurd eşqindən.
Silaha sarılaraq bu torpağa and içən,
Ər oğullar döyüşdə qəsbkara çəkdi dağ.
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

Xəyalında canladı Xocalının fəryadı,
Vətən sevdalı ərlər fəqət bir ad ummadı.
Döyüşdülər sonacan, çapdılar zəfər atı,
Yağı düşmən əlindən qurtuldu ana torpaq.
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

İntiqamı yamandır yurdu talan olanın,
"Vətən" deyib, gözləri bulud -bulud dolanın.
Hesabı var, haqqı var tökülən hər bir qanın,
Şərəfli tarix oldu bu imtahan, bu sınaq,
Ucaldı zirvələrdə, ucaldı şanlı bayraq.

## SƏSİNDƏN ELƏ BİL GÖYLƏR TİTRƏYİR

Bir az gözlərindən süzülən yaşdır,
Bir az ürəyinin kədəri, qəmi.
Yayın istisində üşüdüyün tək
Addım səslərindən küsən yol kimi,
Zaman da inciyir, vaxt da inciyir.

Alın qırışları yuxuduzluğun,
Min fikir dolaşır beynində yenə.
Bəzən gözlərində dünya bir qəfəs,
Ən adi bir söz də dəyir xətrinə.
Ürək üşüdükcə dil ağı deyir.

Ruhunu duymayır daş ürəklilər,
O ruh ki, dağların büllur çeşməsi.
Cəllad qılıncına kiriyən deyil,
Ümiddən doğulur hər bir kəliməsi.
Səsindən elə bil göylər titrəyir. .



**İLTİMAS SƏMİMİ,**
Azərbaycan Yazıçılar Birliyin üzvü
Prezdinet mükafatçısı

# "İNSANLARA SÖZÜM VAR"

Lerikdə yaşayıb-yaradan Babəli Cvadovun (Babəli Sakit) üçüncü kitabı işıq üzü görmüşdür. Bundan əvvəl oxuculara şairin "Halallıq istəyirəm" (2019), "Bu dünya da mərdlərindir" (2021) kitabları təqdim olunmuş və böyük marağa səbəb olmuşdur. Şairin geniş auditoriyaya təqdim etdiyi bədii əsərlərin əsas leytmotivini əhatəsində olduğu aləm, insanlar, onların arzuları, sevgi və düşüncələri, saf məhəbbət, sədaqət, haqq-ədalətə tapınmaq, ilahi eşq tutur. Onun yazdığı şeirlər özü kimi sadədir, lakonikdir, başadüşüləndir, oxucunun qəlbinə yol tapa bilir. Çünki poeziya bədii təfəkkürün, estetik zövqün məhsuldar qüvvəsidir. Elə bir qüvvəsi ki, orada poeziyanın incəliyi, zərifliyi naxışlara vurulmuş ilmələrin ahəngliyini özündə bərqərar edə bilir. Bu mənada Babəli Sakitin qələmə aldığı şeirlər çox vaxt öz mövzularının fəlsəfəsini canlı həyatdan alır. Onun poeziyasındakı mənəvi təsvir gücü, həyatiliyi, eşqin, məhəbbətin saflığını daha da qüvvətləndirir. Babəli Sakit sevgidən, məhəbbətdən, insanlardan, onların həyata baxışlarından necə ilhamla yazırsa, onun Qarabağ haqqında, şəhidlik mövzusunda yazdığı şeirləri də hər bir azərbaycanlını, insanları, vətəni, onun dağını, daşını, gülünü, çiçəyini sevməyə və qorumağa ruhlandırır.




**"Lerik"**

## Allah rəhmət eləsin!

Lerik Rayon İcra Hakimiyyətinin kollektivi Babaxan Ruhullayevə oğlu

**Elnurun**

faciəli surətdə vəfat etməsindən kədərlənir, dərin hüznlə başsağlığı verir.

---

Lerik Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin direktoru Maqsud Ağayev Sadiqə Ruhullayevaya oğlu

**Elnurun**

faciəli surətdə vəfat etməsindən kədərlənir, dərin hüznlə başsağlığı verir.

## Replika

**Lənkəran Regional Təhsil İdarəsinin Lerik rayon şöbəsi 2022-ci ilin ikinci yarısı üçün "Lerik" qəzetinə abunə olmaq istəmədi. Görəsən bunun səbəbi nədir?**

# BU "SAQQALLI" BİNANIN SAHİBİ KİMDİR?

Lerik şəhəri getdikcə müasir görkəm alır, di gəl ki, şəhərin "saqqallı" binaları onun görkəminə xələl gətirir, yaraşığını pozur. Elə götürək, sovet dönəmində fəaliyyət göstərən tütün qəbulu məntəqəsini. Əvvəllər klub olub. Sonra illər boyu tütün iyi verən məkana çevrilib. Bu bina Lerik şəhərinin Həzi Aslanov küçəsinə burulan yolun döngəsində Lerik Rayon Polis İdarəsinin yaxınlığında yerləşir. Döngə də döngədir, lap sərt. Bəzən avtomaşınlar burada üz-üzə gəlir. Piyadalar təhlükə ilə rastlaşırlar. Sürücülər də bu yolda maşını çox sürətlə idarə edirlər. Lerikə gələn nabələd adamlar soruşduqda "bu bina nədir?" adam cavab verməyə söz tapmır. Bu yöndəmsiz binanın dəmirləri, şiferləri yoxa çıxır, pəncərələri, qapıları pis görkəmdədir. Biz bu barədə "Lerik" qəzetində söhbət açmışdıq. Tütün binası ya sökülməli, ya da burada yeni nəsə tikilməli, ən yaxşı halda yerində abadlıq işləri görülməli, sərt döngə şəhərə uyğun genişləndirilməlidir.

Sual olunur? Görəsən bu "saqqallı bina"nın sahibi kimdir? Niyə uçuq-sökük binaya sahib duran yoxdur? Hansı şəhərdə belə köhnə, uçuq-sökük bina görmüsünüz?

**"Lerik"**

Təsisçi və baş redaktor: İdris ŞÜKÜRLÜ

Təsisçilər: Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin kollektivi
H/№AZO5AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96035
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Həzi Aslanov küçəsi, 1
Tel: (070) 200-21-54

Qəzet "Son Dakika" MMC mətbəəsində çap olunur.
Siraj: 654
Tiraj: 400